# Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsi

*Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsi* elmi-tədqiqat işlərini Azərbaycan ədəbiyyatı: mərhələləri, klassikləri, abidələri problemi, Orta əsrlər Azərbaycan ədəbiyyatı: islamla başlayan tarixi-mədəni və ədəbi proses mövzusu üzrə yerinə yetirib: 1) Klassik Şərq poeziya janrlarının genezis və modifikasiyası (XI-XVI yüzilliklər Azərbaycan saray və saraydankənar ərəbdilli ədəbiyyat nümunələri əsasında); 2) «Füzuli» (monoqrafiyası).

2018-ci ildə şöbə üzrə 5 kitab, 42 məcmuə məqaləsi, o cümlədən xaricdə 5 məqalə, impaktfaktorlu jurnallarda 1 məqalə, 2 elmi-kütləvi nəşr, 1 tərtib işi yerinə yetirilib.

Bu il şöbə əməkdaşları AMEA-nın müxbir üzvü, professor Əlyar Səfərlinin 80 illik yubileyi münasibətilə respublika elmi konfransının materiallarını (Bakı: "Elm", 2018, 240 s.) çap edib. Konfrans materiallarında çıxan məqalələrdə Əlyar Səfərlinin həyatı və yaradıcılığı əks olunub.

*F.ü.f.d. Zəkulla Bayramlının* «Füzuli və ...» (Bakı, «Elm və təhsil», 2018, 330 s.) məqalələr məcmuəsinin elmi readktoru prof. Fəridə Əzizova, rəyçiləri əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı və f.e.d. Ataəmi Mirzəyevdir.

Z.Bayramlı kitabda «Bağdaddan doğan günəş», «Füzulinin doğum tarixi doğru deyildir», «Məcnun–tanrı sevgisi», «Füzuli divanlarının dibaçələri klassik nəşr örnəkləri kimi», «Axundzadə və Füzuli», «Firidun bəy Köçərli və Füzuli poeziyası», «Füzuli poeziyası M.Ə.Rəsulzadənin gözüylə», «Nigari lirikasında Füzuli təsiri», «Natəvanın Füzuliyə bir nəzirəsi haqqında» «Sürurinin bir qəzəli haqqında», «Nəsimi və Füzulinin türk divanlarında səsləşən bəzi məqamlar», «Orta yüzillər mühacir şairimiz», «Hamidi divanının yeganə avtoqraf nüsxəsi», «Hədiqətüs-süəda»da işlənmiş bəzi poetik fiqurlar haqqında», «Füzulinin fars divanının dibaçəsi haqqında», «Şah İsmayıl Xətai», «Füzuli yaradıcılığı Əlyar Səfərlinin araşdırmalarında», «Vidadi poeziyası və Füzuli kədəri məqalələrini toplayıb.

*F.ü.f.d. Firudin Qurbansoyun* «Mirzə Əbdülqadir Visaqi (özü və sözü) (Bakı, 2018, 144 s.) monoqrafiyası çapdan çıxıb. Nəşrin readktoru professor Fəridə Əzizova, rəyçilər akademik İsa Həbibbəyli və professor Məmməd Əliyev, məsləhətçilər AMK-ın professoru Fəttah Xalıqzadə və f.ü.f.d. Solmaz Həyatovadır.

Bu, Azərbaycan ədəbiyyatında opera librettosu janrının banisi Mirzə Əbdülqadir Molla İsmayıl oğlu Visaqi İsmayılzadə haqqında ilk monoqrafiyadır. Visaqi Nai və Qubad imzaları ilə də qəzəl və qoşmalar yazıb. O, «Şah İsmayıl», «Seyfəlmülük» opera librettolarının, «Yusif və Züleyxa», «Əli xan» və «Şahzadə İsmayıl» adlı dram əsərlərinin müəllifidir. Şairin əsərlərinin əksəriyyəti repressiya qurbanı olub. Kitaba isə cüzi əsərləri daxil edilib.

Müəllif kitabda şərti iki bölmə verib: «Mirzə Əbdülqadir Visaqinin özü» və «Mirzə Əbdülqadir Visaqinin sözü». I bölmədə Ön söz, Visaqinin həyatından anımlar, şəcərəsindəki şairlər, «Visaqi» sözü, yaradıcılığının özəl xüsusiyyətləri, opera librettolarının taleyi, Müşfiq atasını necə xatırlayıb, Visaqi xatirələrdə, Visaqi mətbuatda, Son və ya bu günün sözü, II bölmədə «qəzəlləri, qoşmaları, Nəvayi-Şərqi, yaxud Qürubi-afitab», «Dirilik qönçəsi» və «Şahzadə İsmayıl (mənzum divanı)» yazıları verilib.

F.Qurbansoyun «İmadəddin Nəsimi» (Bakı, "Elm", 2019) monoqrafiyasının elmi redaktoru və ön söz müəllifi Fəridə Əzizova, məsul redaktoru f.ü.f.d. Safura Quliyeva, rəyçiləri f.ü.f.d. Ç.Sasani, f.ü.f.d. Zəkulla Bayramlı və f.ü.f.d. Gülzar İbrahimqızıdır.

Monoqrafiya islam təfəkkürlü irfan mədəniyyəti özülündə formalaşan mütəfəkkir şair İmadəddin Nəsiminin poeziyasına yeni baxışdır. Əsər İ.Nəsimi ilə çağdaş oxucu arasında ünsiyyətə zəmin yaradır, şairin poetik sənətkarlığının sirlərini ifadə edir.

2018-ci ildə institut elmi Şurasının 18 sentyabr tarixli qərarı ilə gürcü alimi *Elizbar Cavelidzenin* «Ruhi Bağdadi» monoqrafiyası da çap olunub. Nəşrin elmi məsləhətçisi və ön söz müəllifi akad.İsa Həbibbəyli, elmi readktorları filologiya elmləri doktoru Azadə Musayeva və professor Bədirxan Əhmədovdur. «Elmi mətnin gürcü dilindən tərcüməsi Mirzə Məmmədoğlunundur.

«Monoqrafiya görkəmli gürcü türkoloqu E.Cavelidzenin Azərbaycan dilində nəşr edilən ikinci kitabıdır. Kitabda XVI əsrin görkəmli türk şairi Ruhi Bağdadinin həyatı, dünyagörüşü və lirikası təhlil edilib. Əsərdə Şərqin fəlsəfi təriqətləri olan sufilik və hürafilik məsələlərinə geniş yer ayrılıb».

Bu ildə "Füzulinin tərcümə yaradıcılığı", "Füzulinin qəsidələri", "Füzulinin farsca Divanı", "Füzulinin qəzəlləri", "Füzuli ədəbi məktəbi", "Füzulinin Azərbaycan türk divanı", "Füzulinin qitə, rübai və digər lirik şeirləri", "Orta əsrlər Azərbaycan ədəbiyyatında mənzum hekayələr" və "Söhbətül-əsmar" mövzusunda tədqiqat işi həyata keçirilib.

*Şöbənin müdiri f.e.d. F.Əzizova* "Klassik Şərq poeziya janrlarının genezis və modifikasiyası (XI-XVI yüzilliklər Azərbaycan saray və saraydan kənar ərəbdilli ədəbiyyat nümunələri əsasında)" mövzusu üzərində işi davam etdirib. F.Əzizovanın il ərzində Azərbaycan və rus dillərində 11 məqaləsi çap olunub. Müəllifin xüsusilə, "Müasir Azərbaycan tarixi Şirvanşahlar dövlətinə səyahət" beynəlxalq elmi konfransların elektron versiyasının materiallar (Bakı, 23-24 oktyabr 2018), "Şirvanşahlar dövlətinin şair və ədibləri (XIII-XV əsrlər)" məqaləsi, «Актуальные проблемы информационного общества в науковедении культуре, образовании, экономике. Москва, «АТиСО» kitabında Наследие Древнего Востока в мусульманской мифологии" məqaləsi, "Ранние переводы Корана на тюркский язык" məqaləsi (Баку, «Papirus Nəşriyyat və Poliqrafiya», 2018, səh.368-372), "XII-XVI əsrlər Azərbaycan şeirinin poetik qaynağında təsəvvüf" ("525-ci qəzet", səh.7), «Xətai Divan»ın yeni nəşri ("Ədəbiyyat məcmuəsi". Bakı, 2018), "Полифункциональность и отсутствие дефиниции для литературных видов и жанров средневековой прозы". «Fizika və lirika» Beynəlxalq Elmi Konfransda məruzə, "Насими и тюркская литература (проблема преемственности). Духовное наследие Насими в историко –культурном контексте средневекового Востока." Москва məruzə və məqalələri diqqətəlayiqdir.

Ümumən, 42 məqalə içərisində *Fəridə Əzizova, Ataəmi Mirzəyev, Çingiz Sasani, Gülçin Babayeva, Zəkulla Bayramlı, Qədim Qubadov, Ruhəngiz Əliyeva, Səltənət Əliyevanın* məqalələri xüsusi qeyd edilə bilər.

Şöbədə il ərzində 2 dissertasiya və bir doktorluq dissertasiyası müzakirə edilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən Nəsimi festivalında F.Əzizova, Z.Bayramlı, R. Əliyeva, S.Əliyeva, Q.Qubadov çıxış edib. *Dos.Zəkulla Bayramlının* "Füzuli və" kitabının Azərbaycan Yazıçılar Birliyində təqdimatı keçirilib.

Şöbənin doktorantı *N.Hacıyeva* "Klassik poeziyamızda mədhiyyə" mövzusunda dissertasiyasını şöbəyə təqdim edib.

2018-ci ildə şöbənin 3 əməkdaşı F.Əzizova, Ç.Sasani və Z.Bayramlı Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının fəxri fərmanları ilə təltif olunub.


**Hazırladı:** **Əlizadə Əsgərli**

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor*

**Fəridə Əzizova**

*Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor*